

## BƏXTİYAR ABBAS İNTİZAR

### BAŞDAŞI
*(təcnis)*

Görünməzlik hikmətindən arif ol,
Düşündükcə göz böyüyür, baş daşır.
Qafil getmə bu dünyadan, əhlətdə,
Qoy yerindən oynatmasın baş daşı.

Sevilənlər nə Leyli, nə Yaxşıdır,
Züleyxanın sevdiyi Yar yaxşıdır.
Yaxşı yaşa, yaxşı sevil, yaxşı dur,
Axirətə özün ilə baş daşı.

Qoyulacaq üz qibləyə, yan yana,
Olmasın ki, kürək yana, yan yana.
Düzülərək bütün ümmət yan-yana,
Başlar üstdən asılacaq başdaşı.

### YAY MƏNİ
*(təcnis)*

Bu ötüşdə atəşdəndi libasım,
Yola verir bahar məni, yay məni.
Ruh adında gərilibdi varlığım,
Atacaqdı qəribliyə yay məni.

Eşq nurunu urva təkin səp, ələ,
Xeyirimi torpağa yox, səp ələ.
Bu dünyamı ürəklərə səpələ,
Xəmrimi tut, kündəyə vur, yay məni.

Saqi, daha istəmirəm mey, dana,
Aşiq gəlib buta ala, mey dana.
Bəxtiyaram, yol tapmıram meydana,
İntizarlı könüllərə yay məni.

### BAŞLADI
*(təcnis)*

Nə fırtına, nə tufandı yenə də,
Özüm ilə yenə davam başladı.
Rüzgarların vıyıltısı nəğməmi?
Yoxdu onun yeddi notu, baş ladı.

Düzdanışan başlar gəlir tez tilə,
Gözlə vaxtı, deyəcəklər test ilə.
Hər bir işə götürürlər test ilə,
Guya hər şey savadladı, başladı.

Bəxtiyaram, yoxdu ürək adaşım,
Sən bu adı həkk eyləmə, a daşım.
Ha küktəyim, ha qalxınım, ha daşım,
Xeyri yoxdu, bütün fitnə başladı.

### DEMƏKDİ

Yayın istisində bərk-bərk üşümək,
Qışın şaxtasında donmaq deməkdi.
Həsədlər içində ömür keçirmək,
Cəhənnəm odunda yanmaq deməkdi.

Nəyə lazım imiş dünyada bitmək,
Bir nur tək ayrılıb yoxluqda itmək.
Xəstə könül ilə ibadət etmək,
Allahı, İmamı danmaq deməkdi.

Bir anın içində düşən yüz hala,
Görkəmi köpəkdi, məqamı tula.
Düz yolda gedəndə baxsa sağ-sola,
Tülkü qabağında sinmək deməkdi.

Əgər insanoğlu çıxarsa dimdik,
Açsa qanadını, göstərsə pipik,
Təkəbbür içində yerisə dik-dik,
Ayaqlar altına enmək deməkdi.

Tale rəvan olmur, çoxdu ziqzağı,
Həsrətin çətini, yolun uzağı,
Götürüb yükünü özündən ağır,
Sınaqda əyilmək sınmaq deməkdi.

### QARĞIŞ

Bu işi adam həll edir,
Ay səni adam öldürsün.
Bu qədər qada çəkmişəm,
Ax səni qadam öldürsün.

Qabırğası, gönü qalın,
Enli kürək, arsız alın,
Hünəriboş, əliyalın,
Bəstəboy qudam öldürsün.

Şapalaq şillə heyifdi,
Bir təpik, kəllə heyifdi,
Donuzluq güllə heyifdi,
Mənalı edam öldürsün.

## GƏLƏ BİLMİRƏM

Xəyallar alıb canımı,
Özümə gələ bilmirəm.
Sanki qurudub qanımı
Özümə gələ bilmirəm.

Bu nə azara düşmüşəm,
Müşkül bazara düşmüşəm,
Yoxsa nəzərə düşmüşəm,
Özümə gələ bilmirəm.

Gələn yoxdur gərəyimə,
Ağrı vurur kürəyimə,
Düşəmmirəm ürəyimə
Özümə gələ bilmirəm.

Güvənməyə comərd yoxdur,
Dərdləşməyə həmdərd yoxdur,
Getmək üçün bir yurd yoxdur,
Özümə gələ bilmirəm.

Ərk ilə gəlmişdim bərkdən,
Saz olub çıxdım köynəkdən,
İstədiyim pərdə, kökdən
Özümə gələ bilmirəm.

## ÜRƏK

Yenə çıxıbdı özündən,
Baxmır sözə yenə ürək.
Yola getmir bir-biriylə
Köksümdəki sinə, ürək.

Nə yazılır, nə qoyur iz,
Nə patrondu, nə də giliz.
Rəqs eyləyir gecə-gündüz,
Oynayır nə günə ürək?

Neynirəm çuqun-dəmiri,
Yanmışam; - bu can kömürü.
Məni içimdən gəmirir,
Kaş bir daşa dönə ürək.

Vaxt ötəri, baxtsa quraq,
Seçkin oldum, düşdüm qıraq.
Hey səs salır taraq-turaq,
Gözləyirəm dinə ürək.

## BAĞLIDI

Hansı yana üz tutdumsa,
Qapılar qada, bağlıdı.
Əlimdə açar olsa da,
Çox gizli koda bağlıdı.

Fərqi yoxdu aqil, cahil,
Şər önündə olub sayil.
Mənə çatan bu haqq deyil,
Bir quru ada bağlıdı.

Kimdi yetim, kimdi sağır,
Səs boğulur, min yol çağır.
Mənə qalmışdı dar cığır,
Gördüm ki, o da bağlıdı.

## YAZIRAM

Mən ən yaxşı seirimi
Yuxudan durub yazıram.
Qələmsiz, telefonumda
Feyzimə girib yazıram.

Sözlə oxudum adamı,
Sözlə xərclədim qadamı.
Xarabada söz adamı
Yenidən qurub yazıram.

Boylanıb dünya üzünə,
Seyr edib haqqın izinə,
Açılıb ruhun özünə,
Hikkəmi qırıb yazıram.

Gəlir yüz də, gəlir min də,
Gözəl mələk geyimində,
Hər bir duyğulu deyimin də,
Yuxusunu görüb yazıram.

And içdim sözün canına,
Büküldüm onun qanına.
İntizar adı yanına
Bir dənə Qərib yazıram.

## MASKA

Hər şey öz yerində olanda gözəldi,
yerini dəyişməyin əşyaların, insanların.
Hamının bütün işləri düzəldi,
bizə çormu dəydi,
qarışıb hər şeyimiz bir-birinə.
Bu gün də mitinqdi,
mənalı və nəticəsiz...
Şey demişkən,
şəhərə də çıxa bilmirəm
ortalığa qoyulmuş
şeylər əlindən,
mikrob düşər gözümə.
Göz üçün də
maska düzəldilsəydi
taxmaq olardı.

***

Bu qədər göz hara baxıb,
bu belin ağzı əyriymiş axı,
sapı da o məsələ.

Bunu həyətə buraxan
qapı da o məsələ.
Həyəti qoruyan qancıq
gecənin birində xəlvətcə
gedib qurdlarla ulaşıb.
Bunun doğacaq küçüklərindən
qoru bizi, Allah.
O, gedib qurda bulaşıb.
...Yuxularım yaman qarışıb.

## KAŞ

Qurumuş qorxunu
qaytaranda qaqaş
qorxdu qaynamadan.
Qarşısındakı qulyaş
qalaylandı qırtlağında,
qaynadı qursağında.
Qurğuşunlandı qayıdışı.
Quruldadı qulaqları,
qatlamadı qırağını,
Qandı, qandı, qardaş...
Qarğamazsa qaranquş,
qapanacaq qaranlıq.
Qurtuluşumuz qansız
qurtaraydı kaş!

## FONTAN

Yay istisi, can yanğısı
olanda yatan fantan!
Payız sərində səhər-səhər,
nə haydasan!
Bəs sənin lazerli
musiqin də olmalıydı,
olmadı?!
Deyəsən qalmadı
burada heç nəyin duyğusu.
Ay sənin içinə şu...

## ÜMİD

Ümid yaşayıbsa, ölübsə,
dirilə bilər yenidən,
təki dayısı olsun.
Ümid heç olmayıbsa
dayısı ölsün.
Öldürəcəklər məni...

## NATÜRMORT

Bu payız səhəri, yağışdan sonra,
yolun kənarları süni təpələr...
təpələrin bu üzü yamyaşıl qazon,
o üzü xarabalıqdı,
xarabalıqda qotur ağaclar ,
ağacların altında nişanlanmış
sahibsiz itlər...
Bir kişi ayağa geyib göy çəkmə,
əynində göy mayka,
kürəyində "ilhamla irəli"
etiketli qazon sulayır.
Xarabalıqdan ağaclar
bu kişiyə baxıb
ədalətə yas tutur.

## AĞIL DUASI

Axtarıram...
əlıqurumuşun yandırdığı
sevgi məktublarımın külünü.
Çəkim eşqdən
kor olmuş gözlərimə,
açıldı bəlkə.
Bəlkə oxuya bildim

## ALIN YAZIMI

Sonra yaza bildim şeir adlı
özümə bir ağıl duası,
qadası.

## LAZIM

Taleyimizi vakansiya edib,
testdən keçirib,
müsabiqədə ələyən ələk
çox sehrlidi, Lələ.
Lazım gəlir
çınqıllar keçirir gözlərindən.
Lazım gəlir
heç suyu buraxmır lap.
Heç baş açmır fələk
ələyimizdən, əməlimizdən.
Bu da Lazım...
Ağıllı ol bala,
get adamını tap.

## DOYMAZDIM...

Doymazdım bu dünyadan...
Oxşar sifətlər,
oxşar ləhcələr,
oxşar ləçərlər
bezdirdi məni.
Torpağın uşaqlarının
əlləri ciblərində
statuslarını bilyard
kimi oynadırlar.
Bütün ölçülərdə
cəmi iki meyar var;
adam və pul!
Daha yaxşı oğlan yoxdur,
yaxşı dəyər var.
Doydum dəyərsizliklərdən.

***

Gözümdə itir mənalar ona görə ki,
aşiqlərin boynunda cinayət adlı məcəllə,
Şeir məclisində balalığı qurumuşların
dilində sevgi edir təcəllə...
Bilmirəm öləcəyəmmi əcəllə?